Xəzər Universiteti

# "RİTORİKA" KLUBU

## <u>HƏDƏF:</u> TƏLƏBƏLƏRDƏ NİTQ MƏDƏNİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ

## MODERATOR: FİL.Ü.F.D.SEVİNC QƏMBƏROVA

1. **Layihənin məqsədi:**

Yaxşı nitqə sahib olmaq insanın özünü düzgün təqdim etməsinə xidmət edir. Surətlə inkişaf edən dünyada yaxşı nitq qabiliyyətinə yiyələnmək ən vacib amillərdəndir. Rəqabətə dayanıqlı kadr kimi yetişməsi və iş həyatında özünü daha yaxşı ifadə edə bilməsi üçün ixtisasından asılı olmayaraq hər bir gəncin nitq mədəniyyətinə yiyələnməyinə ehtiyacı vardır. Belə ki, istənilən sahədə fəaliyyət göstərən kadrın nitqi nə qədər aydın, düzgün, təmiz, yığcam, ifadəli və s. olarsa, daha uğurlu ola bilmək şansı da çoxalır.

2. **Problem:**

Hazırda gənclər arasında istər gündəlik həyatda, istərsə də işgüzar ünsiyyətdə özünü və fikrini yaxşı ifadə edə bilməmək halları, söz ehtiyatının kasadlığı, mütaliə mədəniyyətinin olmaması və s.kimi problemlər müşahidə olunmaqdadır.

3. **Həlli:**

A) Gənclərin oxucu kimi formalaşdırlması üçün təyin olunmuş müəyyən əsərlərin oxunub müzakirə edilməsi;

B) Nümunəvi nitqə sahib olan mütəxəssislərin (diktor, aktyor və s.) qonaq qismində dəvəti;

C) Klub iştirakçılarının müəyyən mövzular ətrafında çıxışlar hazırlayıb təqdim etməsi, müzakirəsi (üstünlükləri, çatışmazlıqları) və s.

D) Konfranslarda məruzə etmək üçün tezislərin hazırlanması.

4. **Üsullar (nümunələr ilə):**

a) Qurban Səidin “Ali və Nino” romanı iştirakçılar tərəfindən oxunulur. Klubun növbəti görüşündə əsərin ideyası, burada qoyulan məslələr, obrazlar və s. təhlil olunur.
b) Yazıçı Rövşən Abdullaoğlu hər hansı mövzuda (“İlham pərisi”, “Zaman planlaması” və s.) məruzə etməsi üçün dəvət edilir. Məruzədən sonra sual-cavab təşkil olunur.
c) “Camaat nə deyər?”, “10 il sonra özümü necə görürəm?” və s. mövzularda diskussiyalar, debatlar və s.

5. **Zaman planlaması:**

Klubun görüşlərinin ayda bir dəfə (şənbə günləri) keçirilməsi nəzərdə tutulmuşdur. Görüşlərin reallaşması üçün əvvəlcədən otağın təyin edilməsinə ehtiyac vardır.

6. **Auditoriya (iştirakçılar):**

Klubun iştirakçıları olaraq, əsasən, universitetin müxtəlif ixtisaslarında təhsil alan tələbə və magistrantlar nəzərdə tutulmuşdur.

7. **Risklər:**

Yarana biləcək hər hansı bir riskin qarşısını almaq üçün əvvəlcədən məkan, zaman, qonaq spiker, əsər və s. müzakirə olunub planlaşdırılsın.

8. **Mənbələr:**


1. Allan və Barbara Piz. Bədən dili haqqında mükəmməl kitab. Bakı, “Qanun” nəşriyyatı, 2016.
2. Aristotel. Ritorika. Birinci kitab. İkinci kitab. Üçüncü kitab. Bakı, “Turan” nəşriyyatı, 2008.
3. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı, 2013
4. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, 2011
5. Cəfərov N.,Mərdanova S.,Qəribli A.Azərbaycan nitq mədəniyyəti.Bakı,2018
6. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı, 2003
7. Hüseynov S., Qaracayeva E. Azərbaycan dili və nitq mədəniyyəti (dərslik). Bakı, Elm və təhsil, 2016
8. Məmmədli N. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Bakı, 2021
9. Nəzəroğlu Cəlalə. Danışığınla həyatı qazan. Bakı, “TEAS press”, 2020.
10. Şiriyev F.Azərbaycan dilinin nitq mədəniyyəti və kommunikasiya.Bakı.2020.